# İnvestisiya proqramlarının şəffaflığı və iqtisadi səmərəsi daha da yüksələcək

***Prezident İlham Əliyev bir sıra çıxışlarında ölkəmizdə dövlət qurumlarının fəaliyyətində nöqsanlara yol verildiyini diqqətə çatdıraraq, bu sahədə nəzərə çarpan çatışmazlıqların aradan qaldırılması üçün yeni idarəetmə sisteminin qurulmasının zəruriliyini bildirib. Məhz buna görə də ölkə rəhbəri ötən il avqustun 7-də "Azərbaycan İnvestisiya Holdinqinin yaradılması haqqında" müvafiq fərman imzalayıb.***



Azərbaycan iqtisadiyyatının inkişafında mühüm önəm daşıyan bu sənədlə qarşıya qoyulan əsas məqsəd dövlət şirkətlərinin və müəssisələrinin, habelə dövlət payı olan təsərrüfat cəmiyyətlərinin vahid prinsiplər əsasında idarə olunması, onların fəaliyyətinin təkmilləşdirilməsi, o cümlədən, həyata keçirdikləri investisiya proqramlarının şəffaflığının və iqtisadi səmərəsinin yüksəldilməsi, rəqabət qabiliyyətinin artırılması, maliyyə sağlamlığının, habelə dayanıqlılığının yaxşılaşdırılması olub.

Fərmanla Azərbaycan İnvestisiya Holdinqinə müvafiq sahədə dövlət siyasətinin formalaşdırılmasında iştirak etmək, həmin siyasəti reallaşdırmaq, müvafiq sahədə aidiyyəti dövlət orqanları ilə əməkdaşlıq münasibətləri qurmaq, qabaqcıl beynəlxalq təcrübədən yararlanmaqla dövlət müəssisələrində idarəetməni gerçəkləşdirmək, dövlət müəssisələrinin maliyyə sağlamlığını və dayanıqlılığını yaxşılaşdırmaq, bu məqsədlə onların maliyyə resurslarını, habelə xarici borcların cəlb olunmasını səmərəli meyarlar əsasında idarə etmək və digər bu kimi səlahiyyətlər verilib.

Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə yuxarıda göstərilən vəzifənin reallaşdırılması məqsədilə nəqliyyat sektorunda fəaliyyət göstərən iri dövlət müəssisələri –"Azərbaycan Hava Yolları", "Azərbaycan Dəmir Yolları" və "Bakı Metropoliteni" qapalı səhmdar cəmiyyətlərində, eləcə də "BakuBus" Məhdud Məsuliyyətli Cəmiyyətdə müşahidə şuraları yaradılıb.

Qeyd edim ki, əsas dövlət şirkətləri Azərbaycan İnvestisiya Holdinqinin idarəetməsinə veriləndən sonra artıq adları çəkilən qurumlarda müşahidə şuralarının formalaşdırılması həyata keçirilir. Həmin şuralar qarşısında gələcəkdə sözügedən müəssisələrin fəaliyyətinə ümumi nəzarəti və rəhbərliyi həyata keçirmək vəzifəsi qoyulur.

Ümumiyyətlə, iri dövlət qurumlarının fəaliyyətlərində səmərəliliyin artırılması məqsədi daşıyan müşahidə şuralarının yaradılması iqtisadi islahatların bir elementi kimi xarakterizə olunmalıdır. Belə ki, beynəlxalq məsləhətçi şirkət cəlb etməklə həmin müəssisələrin hüquq, maliyyə, vergi və kommersiya sahələrində fəaliyyətinin nəticələrinin 6 ay müddətində diaqnostikası aparılması və sonrakı 2 ayda onların yeni nizamnamə və struktur layihəsinin hazırlanması nəzərdə tutulur.

Göründüyü kimi, iri dövlət müəssisələrinin idarəedilməsində yeni mərhələ başlayır. Sözügedən müəssisələr nəqliyyat sektorunda aparıcı qurumlardır. Bu baxımdan onların fəaliyyətinin daha səmərli təşkil edilməsi həmin sektorun inkişafının dayanıqlığı baxımdan mühüm əhəmiyyətə malikdir.

"Azərbaycan Hava Yolları"nın (AZAL) fəaliyyəti ilə bağlı ən vacib gözləntilərdən biri təyyarə biletlərinin qiymətinin azaldılmasına nail olunmasıdır. Çünki təyyarə biletlərinin qiymətinin yüksək olması ölkəyə gələn turistlərin sayına birbaşa təsir edir. Təbii ki, pandemiya dönəmində əcnəbi turistlərin sayı obyektiv səbəblərdən azalıb. Amma postpandemiya dövründə daha çox istiqamətlərdə büdcə ucuşlarının sayının artırılması, eyni zamanda, bilet qiymətlərinin aşağı salınması prioritet məsələlərdən olmalıdır. Turizmin inkişafı keyfiyyətli və aşağı qiymətli ucuşların sayından da birbaşa asılıdır.

Beləliklə, dövlət müəssisələrinin fəaliyyətinin səmərəliliyi aydın, ölçülə bilən və şəffaf səmərəlilik göstəriciləri vasitəsilə müəyyənləşdiriləcək. İnvestisiya Holdinqi dövlət müəssisələrinin korporativ idarəetmə orqanlarında iştirak etməklə onların Azərbaycanın iqtisadi qüdrətinin daha da artmasına töhfə verməsini şərtləndirəcək. Bütövlükdə isə yeni dövr islahatlarında əsas strateji priortet məhz dövlət mülkiyyətində olan müəssisələrdə korporativ idarəetmənin formalaşması və inkişafı olacaq.

***Vüqar BAYRAMOV,***
***Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü***